*Rəxşəndə Kərimova. Əbdülvəhhab Şəaraninin Bakıda saxlanılan elmi irsi // Əlyazmalar yanmır, 2018, № 2 (7), s.27-30.*

UOT: 82.0:01: 17.81.31

**Rəxşəndə Kərimova**
*kiçik elmi işçi*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı şəhəri, İstiqlaliyyət küçəsi 26.*
*ms.rxsnd@mail.ru*

# ƏBDÜLVƏHHAB ŞƏARANİNİN BAKIDA SAXLANILAN ELMİ İRSİ

**Açar sözlər:** *Şəarani, islam, Quran, təsəvvüf, əlyazma*
**Ключевые слова:** *Шаарани, ислам, Коран, суфизм, рукопись*
**Key words:** *Shaarani, islam, Quran, sufism,manuscript*

*Azərbaycan mədəniyyət xəzinəsinin inciləri olan qədim əlyazmaların şöhrəti respublikamızın hüdudlarından kənarlarda duyulub. Bu gün dünyanın ən nüfuzlu muzey və kitabxanalarında Azərbaycana aid əlyazmalar var. Bu əlyazmalar xalqımız, onun mədəniyyəti, mənəviyyatı haqqında böyük bilgi verir.*

*Bu gün AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu dünyada ən zəngin Şərq yazılı abidələri toplanmış əlyazma mərkəzlərindən biri sayılır və Azərbaycan əlyazmalarının mühafizə edildiyi yeganə milli institut kimi fəaliyyət göstərir. Hazırda Əlyazmalar İnstitutunun kolleksiyasında ümumi sayı 60 minə yaxın olan müxtəlif xarakterli materiallar saxlanır. Bunlardan 12 minə yaxını əlyazma kitabıdır (hər kitabda orta hesabla 4-5 əsər yazıldığını nəzərə alsaq, 40 mindən yuxarı əsərin əlyazmasıdır), qalanları isə tarixi arxeoqrafik sənədləri, XIX əsrin ikinci yarısı - XX əsrin birinci yarısı (Səməd Vurğuna qədər) Azərbaycan mədəniyyət xadimlərinin şəxsi arxivlərini, daşbasma və əski çap kitablarını, əski dövri mətbuat materiallarını, foto və kserosurətləri, mikrofilmləri, həmçinin azərbaycanşünaslığın müxtəlif sahələrinə dair müasir kitabları əhatə edir. Yazılanlara görə, min illik bir dövrü əhatə edən Azərbaycan və digər müsəlman şərqi ölkələrinin türk, ərəb və fars dillərində yazılmış abidələri İnstitutda yaradılmış xüsusi iqlim şəraiti olan xəzinələrdə mühafizə edilir.*

Keçən əsrin 50-80-ci illərində Əlyazmalar İnstitutunda Azərbaycan əlyazmaşünaslığının bir sıra sahələrinin əsası qoyulmuş, bununla da "Kitabi-Dədə Qorqud"un mətni, Xaqani Şirvani, Şeyx Mahmud Şəbüstəri, Seyyid İmadəddin Nəsimi, Kişvəri, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Xurşidbanu Natəvan, Heyran xanım, Fatma xanım Kəminə, Lütfəli bəy Azər, Mirzə Həsən Qarabaği və b. bir sıra klassiklərin irsi öyrənilmiş və əsərləri nəşr olunub. Həmçinin, M.Füzuli adına Əlyazmalar İnstitutunda orta əsrlər Şərq əlyazmaları yığılır, sistemləşdirilir, saxlanır və dərc olunur. Hazırda burada türk, fars, ərəb, cığatay və başqa dillərdə 40000-ə yaxın sənəd var. Onlardan 11000-dən çoxu qədim əlyazma əsərləridir. Bu mətnlər bizə orta əsrlərdə insanların tibb, astronomiya, riyaziyyat, poeziya, fəlsəfə, hüquq, tarix və coğrafiya haqda hansı fikirdə olduqları haqda məlumat verir.

Tədqiqatçılar yazır ki, Şərqin, demək olar, bütün böyük klassiklərinin əsərləri və ya onlardan nümunələr institutun kolleksiyasında təmsil olunub [1].

Orta əsr Yaxın və Orta Şərq ölkələrində ilahiyyat sahəsində görkəmli, dərin biliyə malik, böyük nüfuz sahibi sayılan alimlər püxtələşmişdir. Bu dövrdə yaşayıb yaradan alimlərin

əksəriyyətinin yaradıcılıgı ədəbiyyat, incəsənət və elmin yalnız bir sahəsi ilə məhdudlaşmamış coxcəhətli və rəngarəng olmuşdur. İslama dərin yiyələndiklərinə görə öz əsərlərində dinin müxtəlif sahələrinə müraciət etmişdilər. İslam alimləri sırasında XV əsrin məşhur ziyalısı kimi şöhrət tapmış, ayrı-ayrı elm sahələri üzrə mükəmməl təhsil almış bir şəxsiyyəti, Misirdə yaşayıb yaratmış Əbdülvəhhab Şəarani bin Əhmədi xüsusilə qeyd etmək olar. Öz qələmini ayrı-ayrı elm sahələrində sınayaraq, dəyərli əsərlər yazmış və dövrünün görkəmli simalarından biri kimi tanınmışdır. O, Əbdülvəhhab bin Əhməd, İmam Şəarani və Kutbi Şəarani ləqəbləri ilə tanınmışdır. H.898/m.1493-cü ildə Misirin Qalqaşənd qəsəbəsində anadan olmuşdur. Onun nəsli Məhəmməd Peyğəmbərin (s) soyundandır.

İlk təhsilini atasından almış, 7 yaşında ikən Qurani-Kərimi əzbərləmişdir. Çalışqanlığı ilə qısa zamanda müəllimlərinin rəğbətini qazanmış, gənc yaşlarında hədis və fiqh elmləri sahəsində böyük nailiyyətlər əldə etmiş, dövrünün məşhur alimlərindən olan Əliyyul-Havvasdan təsəvvüfü (sufiliyi) mənimsəmişdir. O, Əliyyul-Havvasla yanaşı, Məhəmməd Məğribi, Nurəddin Həsəni, Şeyxülislam Zəkəriyyə əl-Ənsari, Əli bin Camal, Məhəmməd Adil, Məhəmməd bin Davud, Məhəmməd Sərvi kimi alimlərin elmindən bəhrələnmişdir.

Şəarani özü də çoxlu tələbələr yetişdirmişdir. Mədrəsədə dərs keçdiyi zaman hər tərəfdən axın-axın gələn tələbələr onun elm və biliyindən bəhrələnərək həm zahiri, həm də batini elmləri öyrənmişlər.

Özündən sonra zəngin elmi irs qoyan İmam Şəraninin əsərlərindən ən qiymətlisi, dörd məzhəbə aid (Hənəfi, Maliki, Şafei, Hənbəli) fiqh elmini (hüququ) bir araya toplayan “Mizan əl-kubra” adlı kitabıdır. Kitabda hüquq məktəbləri arasında ortaq və fərqli məsələlərdən bəhs edilir. Əsərin geniş müqəddiməsi vardır. Burada İslam alimlərinin, din imamlarının və müctehidlərinin vəsfi, elm və təsəvvüfdəki mərtəbələri ətraflı şəkildə izah olunmuşdur.

Müəllif “Mizan əl-kubra” kitabında yazır: ”Sünnə, yəni hədisi- şərifləri, Qurani-Kərimi açıqlamaq üçündür. Məzhəb imamları sünnəni açıqlamış, din alimləri də məzhəb alimlərinin hökmlərini şərh etmişlər. Qiyamətə qədər bu belə davam edəcəkdir. Sünnə, yəni hədisi - şəriflər olmasaydı, namazların neçə rikət olduqları, ruku və səcdədə oxunacaq duaları, bayram və cənazə namazlarının necə qılınacağını, zəkatın miqdarını, oruc və həccin qaydalarını, nikah və hüquq məsələlərini heç bir alim Qurani-Kərimdə tapıb öyrənə bilməzdi”

Müəllifin “Tabaqati Asri-Səadət” əsəri isə dörd yüzdən çox böyük alim və vəlilərin həyat və yaradıcılıqlarından bəhs edir. Bundan başqa O, “Əcvibət-ul-mərdiyyə”, “Əxləq-uz-zəkiyyə va-l-ulumu-l-ləduniyyə”, “İrşad-ul-muğfəlin”, “Bahr-ul-məvrud”, “Buruk-ul-havatif”, “Tənbih-ul-ağbiyə”, “Cəvahir və durər”, “Huququ ihcət-ul-İslam”, “Sirac-ul-munir”, “Təharət-ul-cism va-l-fuad”, “Fəth-ul-mubin”, “Fəth-ul-vahhab”, “Kibrit-ul-ahmər”, “Kəşf-ul-ğummə”, “Məşarik-ul-ənvar-il-qudsiyyə” və s. əsərlər yazmışdır [2,s.191-204].
Şəaranin yuxarıda qeyd olunan əsərlərindən başqa bəzi mənbələrdə günümüzə qədər məlum olan 80-dən çox əsəri qeyd olunmuşdur [3, s.1913-1920, № 5130].

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda İmam Şəaraninin bir neçə əsərinin əlyazma nüsxələri qorunub saxlanılır. Onlardan biri B-6823/33549 şifrli “Kitabu mizan” adı ilə qorunan əsəri “Kitab əl-mizan əş-şəaraniyyə əl-mudxilə cəmii aqval əl-muctahidin va muqallədihim fiş-şəriə əl-Muhəmmədiyyə”əsəridir [4,s.1918]. Əsər Avropa istehsalı olan təbii rəngli ahərlənmiş vərəqə, qara mürəkkəblə, nəsx xətti ilə köçürülüb. Mətndə bəzi söz və ifadələr qırmızı mürəkkəblə yazılıb. Abidədə orta əsr mətnşünaslığında tətbiq olunan şərti işarələr qırmızı mürəkkəblə verilib. 279 səhifəlik məcmuənin 11a-243b vərəqlərini əhatə edən bu əsər dörd məzhəbin, yəni Hənəfi, Maliki, Şafei və Hənbəli məzhəblərinin müqayisəli fiqh elmindən bəhs edir. Əlyazmanın 35-38-ci səhifələrində zoğalı, firuzəyi, qızılı rəngli mürəkkəblə, ornamentlərlə işlənmişdir. Hənəfi, Maliki, Şafei və Hənbəli məzhəbləri haqqında sxemlər verilmişdir. Kitabın cildi tünd qəhvəyi rəngli, qapaqlı, karton üzərinə çəkilmiş dəridir. Cildin hər iki tərəfində doqquz ədəd basılma medalyon

var. Əsər h.1245-ci/ m.1848-ci ildə Əbdülqəni bin Hacı Məhəmməd Əfəndi tərəfindən köçürülmüşdür [5,v.11a-243b].

Şəaraninin Əlyazmalar İnstitutunda saxlanılan növbəti əsəri D 424/10401 şifrli "Kitabu tabaqat əs-səhabə" adı ilə qorunan "Əl-Vaqia əl-ənvar fi tabaqat əl-əxyar" kitabıdır. Əsər Avropa istehsalı olan təbii rəngli vərəqə, qara mürəkkəblə nəsx xətti ilə köçürülüb. Mətn qırmızı rəngli mürəkkəblə çərçivəyə salınıb və mətnin içərisində qırmızı mürəkkəblə yazılmış söz və ifadələr var. Əlyazmada orta əsr mətnşünaslığında tətbiq olunan şərti işarələr qırmızı rəngli mürəkkəblə verilib. Əsər Məhəmməd Peyğəmbərin (s) səhabələrinin, o cümlədən məzhəb imamlarının, övliyaların, müctehidlərin həyatından və kəlamlarından bəhs edir. Onlardan Əbu Bəkr əs-Siddiq (r.a), Ömər Xəttab (r.a), Osman ibn Əffan (r.a), Əli bin Əbu Talib (ə), Salman Farsi (r.a), Abdullah bin Ömər (r.a), Əbuzər (r.a), Abdullah bin Abbas (r.a), Həsən ibn Əli ibn Əbu Talib (ə), Hüseyn ibn Əli ibn Əbu Talib (ə), Əli bin Zeynal Abidin ibn Hüseyn ibn Əli ibn Əbu Talib (ə), Cəfər Məhəmməd Baqir ibn Əli ibn Zeynal Abidin ibn Hüseyn ibn Əli ibn Əbu Talib, Cəfəri Sadiq ibn Məhəmməd Baqir ibn Zeynal Abidin ibn Hüseyn ibn Əli ibn Əbu Talib (ə) və s. şəxsiyyətlərin adlarını sadalamaq olar. Kitabın cildinə alt və üst hissəsində basma çərçivə, ortasında isə böyük basma medalyon olan tünd qəhvəyi rəngli dəri çəkilib. 285 səhifəni əhatə edən bu kitab "Şafei" ləqəbi ilə tanınan Əbdülməhsun ibn Şeyx Əbdülqəni Ənbusi tərəfindən köçürülmüşdür [6,v.285a ].

*Yuxarıda adı çəkilən əsərlərdən başqa Əbdülvəhhab Şəaraninin Əlyazmalar İnstitutunda B 3791/5416 şifri altında saxlanılan "Məşariq əl-ənvar əl-qudsiyyə fi bəyan əl-uhud əl-Muhəmmədiyyə"adı ilə "Kitab əl-uhud" adlı kitabı da qorunur. Bəzi mənbələrdə "Əl-Uhud əl-Muhəmmədiyyə əl-kubra", "Əl-Uhud əl-Kubra", "Əl-Məurud fi əl-məvasiq va əl-uhud" adları ilə qeyd olunur [7,s.83, №147]. Əsər əmr və qadağalar adlı başlıqla iki hissəyə bölünür. Həmçinin, sərlövhədə tərğib və tərhib hədisləri alimlərin və sufilərin söz və davranışları ilə birlikdə izah olunur. [8,s.349]. Sərlövhə 1b-98b vərəqlərini əhatə edir. Əsər Avropa istehsalı olan təbii rəngli, ahərli, parıltılı vərəqə, qara mürəkkəblə nəstaliq elementli nəsx xətti ilə yazılıb. Mətnin içərisində qırmızı mürəkkəblə yazılmış söz və ifadələr var. Əsərdə bəzi ifadələrin üstündən qırmızı və qara rəngli mürəkkəblə xətlər çəkilib. Əlyazmada orta əsr mətnşünaslığında tətbiq olunan şərti işarələr qırmızı rəngli mürəkkəblə verilib [9, v.1b-98b].*

*Alimin Əlyazmalar İnstitutunda mühafizə olunan əlyazma nüsxələrinin tədqiq edilməsi mühüm əhəmiyyət kəsb edir.*

**Ədəbiyyat:**

1. http://www.baki-xeber.com/medeniyyet
2. İslam alimleri Ansiklopedisi. İstanbul-C.13. 383 s.
3. Karabulut A.R.- Karabulut A.T. Dünya kütüphanelerinde mevcut islam kültür tarihi ile ilgili eserler ansiklopedisi. Kayseri- C.3.1601-2413s.4. كشف الظنون عن اسامى الكتب و الفنون، جلد ٦ ، كاتب جلبى استانبول ١٩٤٣. - ٩٤٥-٢٠٥٤ ص. .
(حاجي خليفة )
5. Əbdülvəhhab Şəarani bin Əhməd. "Kitabu Mizan". Əlyazma məcmuəsi. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. H.1245/ m.1848.- 279v.
6. Əbdülvəhhab Şəarani bin Əhməd. "Kitabi tabaqat əs-səhabə". AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. 285v.
7. Каталог арабских рукописей института рукописей им. К.С.Кекелидзе. - Тбилиси, 1978.- 299 с. (Коллекция L-Выпуск I)
8. Türkiye Diyanet Vakfi, İslam Ansiklopedisi. - İstanbul, 2010. - C.38. 588 s.
9. Əbdülvəhhab Şəarani bin Əhməd. "Kitab əl-uhud". AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.155 v.

**Рахшанда Керимова**

**Научное наследие Абдулваххаба Шаарани в Баку**

***РЕЗЮМЕ***

Абдулваххаб Шаарани бин Ахмед был одним из исламских ученных живших в Египте. Он с младших лет проявлял интерес к разным наукам, в том числе к религиозным. Шаарани брал уроки у знаменитых ученых. Сам тоже занимался преподавательской деятельностью. По данным исторических комментариев у него обучалось много студентов. Ученый обладал даром понимания языка джинов и зверей. Шаарани является автором многих трудов по Исламскому религию, а самым знаменитым произведением, является книга « Китабу Мизан». Несколько трудов Шаарани охраняются в Институте рукописи им.М.Физули при Н А Н Азербайджанской республики.

**Rakhshanda Karimova**

**Scientific heritage of Abdulvahhab Shaarani detained in Baku**

***SUMMARY***

Abdulvahhab Shaarani bin Ahmad is one of Islamic scholars lived in Egypt. He was interested in science and deeply studied Islamic religion. He also taught many students. Shaarani who knew the language of gins and animals is the author of many works. One of his most famous works is “Kitabu mizan”. Some of Shaaranis works have been kept at the Institute of Manuscripts named after M.Fuzuli.

*Redaksiyaya daxil olma tarixi: 14.06.2018*
*Çapa qəbul olunma tarixi: 03.08.2018*

İlahiyyat üzrə fəlsəfə doktoru, dosent **Nailə Süleymanova**
tərəfindən çapa tövsiyə olunmuşdur.